AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# Sərnişindaşıma fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ödənilən SADƏLƏŞDİRİLMİŞ VERGİ, MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA VƏ İCBARİ TİBBİ SIĞORTA HAQQI

BAKI – 2026

Beynəlxalq sərnişin daşımaları istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində mülkiyyətinizdə və ya istifadənizdə olan avtonəqliyyat vasitələri ilə sərnişindaşıma fəaliyyəti ilə məşğul olursunuzsa...

Bu fəaliyyət növü üzrə təqvim ayının sonunadək vergini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqını tam məbləğdə ödəməklə, ödəniş sənədləri və ərizə ilə birlikdə istəyinizə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin “AYNA” informasiya sistemi vasitəsilə elektron qaydada **“Fərqlənmə nişanı” almalısınız***.

# Verginin dərəcələri barədə

Avtonəqliyyat vasitələri ilə sərnişin daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün aylıq olaraq sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən olunur:

| | | |
|---|---|---|
| **Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə** | 1 oturacaq yeri üçün | 1,8 manat |
| **Taksi ilə sərnişin daşınması** | 1 ədəd nəqliyyat vasitəsi üçün | 9 manat |

Sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin daşıyan vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi yuxarıda qeyd edilən cədvəldə göstərilən sadələşdirilmiş verginin məbləğinə aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

**1.** Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında - 2,0;

**2.** Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (1-ci bənddə göstərilənlər istisna olmaqla) - 1,5;

**3.** Digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında (1-ci və 2-ci bəndlərdə göstərilənlər istisna olmaqla) - 1,0.

## Məcburi dövlət sosial sığorta haqqı

Bu fəaliyyət üzrə "Fərqlənmə nişanı"nı alarkən minimum aylıq əməkhaqqının **6 faizi** miqdarında məcburi dövlət sosial sığorta haqqını ödəməlisiniz.

Yuxarıda qeyd edilən məcburi dövlət sosial sığorta haqqının məbləğinə **fəaliyyət göstərdiyiniz ərazi üzrə əmsal tətbiq etməklə** ödəməli olduğunuz aylıq məcburi sosial sığorta haqqını müəyyən etməlisiniz:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - **2,0 əmsal**;
- Abşeron rayonunda, Sumqayıt və Gəncə şəhərlərində - 1,5 əmsal;
- Digər şəhər və rayonlarda - **1,0 əmsal**.

## İcbari tibbi sığorta haqqı

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, bu fəaliyyət üzrə minimum aylıq əməkhaqqının **4 faizi** miqdarında icbari tibbi sığorta haqqını ödəməlisiniz.

**Misal:** Oturacaqlarının sayı 17 ədəd olan mikroavtobusunuzla Bakı şəhərində sərnişin daşınmasını həyata keçirirsiniz. Bu zaman Sizin ödəyəcəyiniz verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının aylıq məbləği aşağıdakı kimi hesablanacaq:

Sadələşdirilmiş verginin aylıq məbləği 17 * 1,8 manat * 2 əmsal = 61,2 manat, məcburi dövlət sosial sığorta haqqının aylıq məbləği 48,0 manat (minimum aylıq əməkhaqqı 400manat * 6 % * 2 əmsal = 48,0 manat) və icbari tibbi sığorta haqqının aylıq məbləği 16,0 manat (minimum aylıq əməkhaqqı 400 manat * 4 % = 16 manat) olmaqla, ümumilikdə ödəməli olduğunuz məbləğ 125,2 manat təşkil edəcəkdir.

**Unutmayın ki...**

- Vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı “AYNA” informasiya sistemi vasitəsilə elektron qaydada “Fərqlənmə nişanı” alınarkən tam məbləğdə ödənilir.
- Bu fəaliyyətə görə vergi orqanına bəyannamə verilmir.
- Digər fəaliyyət növləri üzrə əldə edilmiş gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrı-ayrılıqda aparılır və bu fəaliyyət növləri üzrə mənfəət (zərər) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilmir.
- Fəaliyyətin göstərilib-göstərilməməsindən asılı olmayaraq ödənilmiş vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarım il və il) vergiləri, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqları ilə əvəzləşdirilmir. Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı nəzərə alınır və verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənildiyini təsdiq edən "Fərqlənmə nişanı"nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.
- hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələrində POS-terminallar quraşdırılır.

Bununla belə, bilməlisiniz ki...

- Vergi ödəyicisinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz sahibkarlıq fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasında istifadə etdiyi avtonəqliyyat vasitələri bu vergiyə cəlb edilmədiyinə görə onlar üçün heç bir haqq ödənilmədən **5 iş günü** ərzində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin “AYNA” informasiya sistemi vasitəsilə elektron qaydada **“Xüsusi fərqlənmə nişanı”** alınmalıdır. Həmin avtonəqliyyat vasitələrini satarkən və ya icarəyə verərkən, habelə digər məqsədlər üçün istifadə edərkən ən azı **1 iş günü** əvvəl nişan geri qaytarılmalıdır. "Xüsusi fərqlənmə nişanı"nın ləğv edilməsi üçün elektron qaydada Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin “AYNA” informasiya sistemi vasitəsilə müraciət olunmalıdır.

## MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **“Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş”** adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**